Tarix və onun problemləri, №1-2 2009

AYDIN MƏMMƏDOV
*BDU-nun dissertantı*

# XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ALMANİYANIN TÜRKİYƏYƏ MALİYYƏ YATRIMLARI ALMAN VƏ RUS TARİXŞÜNASLIĞINDA

XIX əsrin sonu XX əsrin əvvəllərində Almaniya sənayesində aydınsezilən, sıçrayışlı templə inkişaf edən inhisarlaşhma prosesi bank-maliyyə sahəsindən də yan keçmədi. Alman tarixçisi Q.Halqarten yazırdı ki, bir ovuc bankirin əlində astronomik məbləğdə pul kütləsinin toplanması ilk növbədə dünyanın hər bir yerində alman ticarətinin qeyri-adi inkişaf tempi və ölkə sənayesinin dünya bazarlarında öz mövqeyini möhkəmlətməsi ilə bağlı idi [4, s.115-117].

Alman bank kapitalının ölkə sərhədlərindən kənarda irimiqyaslı hücuma keçməsini 1886-cı ildə Alman bankının bazasında əcnəbi ölkələr bankının təsis edilməsi aydın göstərir. Qeyd etmək yerinə düşərdi ki, Almaniyanın ağır sənayesinin əsas sahələri sayılan Daş kömür, metalurgiya, kimya, eloktrotexnika və b. yksək inhisarlaşma prosesi hələ imperializm dövrünün başlanmasından xeyli qabaq başa çatmışdı. XIX əsrin 90-cı illərinin əvvəllərində başlanan böhran bir sıra kartel və sindikatların dağılması ilə nəticələnsə də. Əvəzində daha güclü inhisar birlikləri meydana gəlirdi [1, s.148].

Alman tarixçisi Risser Almaniyada XIX əsrin sonu XX əsrin əvvəllərində iri bankların konsentrasiya olunmasının iqtisadi-siyasi səbəbəlrini tədqiq etmiş və belə qənaətə gəlmişdir ki, Almaniyanın maliyyə ekspediyasında Ən böyük rolu Yaxın şərq və Türkiyə oynamışdır. Bu işdə əsas faktor Osmanlı imperiyasında 1899-cu ildə təsis edilmiş ilk alman bankı Alman-Fələstin bankı olmuşudr [15, s.370]. türkiyədə bu bankı Berlində fəaliyyət göstərən fon der Haydtın bankir evi təsis etmişdir. Məhz həmin il osmanlı sultanı Bağdad dəmir yolu konssesiyasını alman kompaniyalarına verəcəyi haqqında fərman imzalamışdır. Müəllif alman banklarının, xüsusən də kapital ixrac edən bankların sayının kəmiyyət və keyfiyyət baxımından artmasını da öz ölkəsinin Adı çəkilən regionda və ölkədə rəqibləri ilə xüsusən də İngiltərə ilə kəskin mübarizənin güclənməsi amili ilə izah edir. Belə ki, əgər XIX əsrin 90-cı illərinin sonunda ölkədə kapital ixrac edən cəmi 4 böyük bank var idisə, 1903-ildə 32 şöbəsi olan 6, 1906-cı ildə isə 70 şöbəsi olan 13 bans təsis edilmişdi. Bu bankların əksəriyyəti Türkiyəyə iri maliyyə yardımları edir, bununla da ölkə iqtisadiyyatının aparıcı sahələrində, xüsusən dəmir yolu sektorunda təsir dairələrini gücləndirməyə çalışırdılar [15. s.367;408]. Y.Rsserin fikrincə Almaniyanın Türkiyəyə maliyyə yatırımı hər şeydən öncə dövlətin eksasiyası siyasətinin təcəssümündən başqa bir şey deyildir: «İndisiyasi avanqard döyüşlər maliyyə zəminində aparılırdı» [15, s.387]. məhz bu səbəbdəndir ki, Şərq bankı, Alman-Fələstin bankı, Alman Levantiyyəxətti cəmiyyətlərin, Şərq bankının Hamburq və İstanbuldakı agentlikləri birgə fəal əməkdaşlıq sayəsində, dövlətin hərtərəfli dəstəyi sayəsində Türkiyəyə maliyyə yatrımlarını durmadan artırırdılar. Əgər 1905-ci ildə Şərq Bankı öz səhmdarlarına divident olaraq 200 min frank ödənişində, 1906-cı ildə 730 min, 1907-ci ildə isə 1050 min frank ödəmişdi. Artıq 1906-cı ilin ikinci yarısında bankın kapitalı 15 mln. franka çatmışdı [15, s.365].

Başqa bir alman tarixçisi H.Qrote də Risserin fikirlərinə şərik çıxaraq alman kapitalının Türkiyəyə ixracında əsas məqsəd kimi öz ölkəsinin siyasi-iqtisadi maraqlarını görür. H. Qrote Türkiyəyə yatrılan maliyyənin böyük kütləsinin dəmir yoluna qoyulmasını qanunauyğun hal kimi qiymətləndir. Müəllifin fikrincə dəmir yollarının çəkilişi

uğrunda mübarizə sanki dünyanın bölüşdürülməsi uğrunda mübarizəni xatırladırdı. Ona görə də I dünya müharibəsi ərəfəsində Türkiyə dəmir yollarının çəkilişinə qoyulan pul kütləsinə görə Almaniya 67,5%-lə birinci yerdə dururdu. Bütövlükdə Türkiyə I Dünya müharibəsinə qoşulanadək alman kapitalına məxsus yolların uzunluğu 1857 km təşkil edirdi ki, onun da 825 km-i Bağdad dəmir yolunun, 1032 km-i isə Anadolu dəmir yolunun payına düşürdü. 2.14

Bu məsələ ilə bağlı V.Hoffmanın «Türkiyədə Alman bankları» əsəri də böyük maraq doğurur. 1915-ci ildə işıq üzü körən bu əsərin əhəmiyyəti hər şeydən öncə ondadır ki, müəllif Risser kimi iqtisadi statistikadan isti-isti, yerindəcə istifadə etmişdir. Çünki, əsərin yazılması təsvir olunan hadisələrlə eyni zaman kəsiyində baş verib müəllif Türkiyəyə maliyyə yatıran kapital qoyan Alman Şərq Bankının fəaliyyətinin konkret iqtisadi rəqəmlərdə dolğun işıqlandırmışdır [8, s.411-412, 414]. V.Hoffman yazırdı ki, artıq XIX əsrin 90-cı illərində Alman kapitalı Türkiyə dəmir yollarının əhəmiyyətli hissəsini öz nəzarəti altına ala bilmişdir, bu isə təkcə strateji yox, həm də böyük siyasi-iqtisadi əhəmiyyət kəsb edirdi. [8, s.141; 315-316].

V Hoffmanın kitabı ilə eyni ildə başqa bir alman tarixçisi K.Vedenfeld özünün «Alman –Türkiyə İqtisadi münasibətləri və ounun inkişaf etdirilməsi» adlı kitabını çap etdirmişdir. Müəllif yazır ki, XX əsrin əvvəllərində «Doyçe bank» Almaniyada Türkiyə səhmlərinin böyük çəkisini öz əlində cəmləşdirmişdi. 1910-cu ildə İstanbulda «Doyçe bank»ın filalı açıldı. Alman kapitalı Türkiyədə 1903-1911-ci illərdə təqdim edilən 10 beynəlxalq istiqraz kompaniyasında iştirak etmişdir. Türkiyədə alman maliyyə maraqlarının başqa bir daşıyıcısı isə «Doyçe orient bank» idi. 1906-cı ildə yaranan bu bankın nominal kapitalı 1911-ci ildə 2 dəfə çoxalmışdı. Artıq XX əsrin əvvəllərində Türkiyənin I IDünya müharibəsində iştirakı ərəfəsində Almaniyanın bu ölkədəki kapitalının xüsusi çəkisi 1 mlrd. markaya çatmışdı [20, s.30].

Alman tarixçisi K.Helfferix «Almaniyanın Türkiyə siyasəti» adlı əsərində mənsub olduğu ölkənin Türkiyənin bütün iqtisadi sferalarına külli miqdarda kapital vəsaiti qoyduğunu, bununla da öz maraqlarını təsdiq etməkdə israrlı olmasını sübut etməyə çalışmışdır. K.Helfferix də yuxarıda adları çəkilən digər tarixçilər kimi Almaniyanın əsasən Türkiyənin dəmir yollarına kapital qoymasından bəhs etmişdir. Müəllif yazır ki, almanların Konya dəmir yolunun çəkilişinə kapital qoyması fransızların İzmirdən Qəssaba qədər olan, ingilislərin isə İzmirdən Aydına qədər olan dəmir yollarının çəkilişinə ciddi zərər vurdu [5, s.11].

K.Helfferix yazırdı ki, dəmir yollarının çəkilişi bir vaxtlar Bibliyada cənnət kimi təsvir olunan yerlərdən keçirdi. Amma hələlik bu yerlərdə tərəqqidən əsər-əlamət olmadığına görə çoxlu maliyyə yatırımı tələb edirdi. Ona görə də dəmir yolunun çəkilişinə pul qoy anlar hələ iri mənfəətə bel bağlaya bilməzdilər. Ən yaxşı halda Türkiyə dövlətindən aldıqları təminat çərçivəsində kiçik faizlərlə kifayətlənməliydilər [5, s11].

K.Helfferixin 1923-cü ildə yazdığı başqa bir kitabı Georq fon Simensin həyat və işgüzar fəaliyyətinə həsr edilmişdir. Bu kitab bütövlükdə Almaniyanın Yaxın Şərqdə və Türkiyədə yeritdiyi ekspensiya siyasətinin çox şaxəlibir xarakter daşıdığın aydın göstərir. Kitabın qayəsi onu göstərir ki, XIX əsrin 80-ci illərində Alman inhisarının Osmanlı imperiyasına münasibətdə qəti dönüş baş verir. Georq fon Simens reyxstaqdakı çıxışlarında birində belə söyləyir ki, Alman kapitalının Türkiyədə ingilis və fransız kapital əməliyyatlarının iştirakçısı, şəriki olduğu vaxtlar artıq çoxdan geridə qalmıb. İndi bu kapital özünü Türkiyədə o qədər sərbəst, azad hiss edir ki, doğma vətənin inkişafı və maraqları naminə orada müstəqil fəaliyyət göstərməyə hazırdır [6, s.30].

1888-ci ilin15 avqustunda Simens xarici işlər idarəsinə müraciət edərək Alman bankının Türkiyədə dəmir yolları konsessiyası olmasına dair bu idarənin rəyini və

İstanbuldakı alman səfərinin ona nə dərəcədə dəstək olmasını öyrənməyə çalışdı [6, III c. s.33]. Lakin Bismark Simensin təklifindən razı qaldığını və hansısa dəmir yolu konsessiyasına görə Türkiyədə dəmir yolunun çəkilişi üstündə ingilis və fransızların bir-biri ilə mübahisəsinə mane olmağı olmağı məqbul saymadığını bildirdi[6, III c. s.33]. 1988-ci ilin 2 sentyabrında Alman bankı reyxkansleri məşhur çavabını aldı. Cavabda Bismark Simensin alınmasında ona dəstək olacağını bildirdi. Lakin onu da əlavə etidi ki, hər hansı ciddi siyasi insident yaranacağı halda, hökumət öz üzərinə heç bir məsuliyyət və öhdəlik götürmür. Kitabda həmçinin Alman bankının Drezden, Ştutqart («Vürtemberqişe ferynsbank») Frankfur Mayının məşhur «Doyçe feraynsbank» bankları ilə birgə İstanbulda «Anadolu dəmir yolları Osmanlı cəmiyyəti»ni təşkil etməsi və bu cəmiyyətin maliyyə əməliyyatlarından geniş bəhs olunur. Kitabda Simens öz dövrünün təkcə mahir iş Adamı kimi deyil, həm də fenomend bir diplomat kimi təqdim edilir. Belə ki, 1899-cu ilin maynda Bismarkın bütün tələşlarının əksinə olaraq Simens Berlində fransızlarla əməkdaşlıq sazişi imzaladı. Bu sazişlə müəllifin müəllifin dili ilə desək alman-fransız iqtisadi «Antanta»sı yarandı. Müqaviləyə görə fransızlar Bağdad dəmir yolu çəkilişinin xərclərinin 40%-ni, almanlar isə 60%-ni ödəməli idilər. Nəzəri olaraq digər ölkələrin tikintidə iştirakının mümkünlü də müqafilədə təsdiqini tapmışdı.

K.Helfferix yazır: «Bu «Antanta»nın yaranması ilə kapital ixracı və maliyyə yatırımları məsələsi beynəlmilləşdi. Bağdad yolu səmalarda uçan xəyallardan real həqiqətə çevrildi» [6, III c. s.97]. Lakin, Simens maliyyə yatrımı məsələsində hər hansı bir formada tərəddüd edirdisə dərhal kayzerin və Marşallın təzyiqi ilə üzləşirdi. Artıq dövlət ondan geri çəkilməyin mümkünsüzlüyünü və problemlərin həlli üçün yeni maliyyə mənbələrinin axtarılmasını tələb edirdi. [6, III c. s.114].

Almaniyanın Türkiyəyə maliyyə yatrımlarını araşdıran tədqiqatçılardan biri də K.Strasserdir. müəllif Almaniyada bank-kredit sisteminin özünəməxsus xüsusiyyətlər kəsb etdiyini vurğulayaraq yazırdı ki, Almaniyanın iri müstəmləkə əraziləri olmadığına görə öz maliyyə yatrımlarını əsasən Avropa və Amerika ölkələrinə yönəldir. Yaxud hər hansı bir Avropa ölkəsində iri bir bank iflasa uğrasaydı, onun səhmdar paketinə yyiyə dururdu. Məsələn İtaliyada iki nəhəng bank iflasa uğrayan kimi Alman bankı, Darmştat bankı və Berlin ticarət cəmiyyəti «kreditin reorqanizə edilməsi» cəmiyyəti təşkil etdilər [17, s.67-69].

Strasser yazır ki, Alman kapitalının Yaxın Şərqə və Türkiyəyə ekspansiyasıneda Ən ciddi faktorlardan biri Alman fələstin bankı olub.

Türkiyədə ilk alman bankı olan bu bank səhm kapitalı 450 min markadan ibarət olub 450 səhmçi arasında bölüşdürülmüşdür. Bankın qarşısında duran əsas məqsəd, bank əməliyyatlarını və ticarəti Almaniya ilə Türkiyə arasında genişləndirmək, Osmanlı imperiyası ərazisində öz filiallarını, şöbə və agntliklərini yaratmaqdan və müxtəlif kommersiya əməliyyatlarını həyata keçirtməkdən ibarət idi. Artıq yarandığı andan bankın Yerusəlim və Yaffada filialları var idi [17, s.90-92]

Strasser yazır ki, Almaniyanın Türkiyədə maliyyə yatrımlarını artırması siyasəti Fransa və İngiltərə kimi dövlətləri ciddi narahat edirdi.

Belə ki, Alman Fələstin bankının əsas rəqibi Lion kredit bankı və digər fransız, ingilis bankları idi [17, s.93-94].

Strasser yazır ki, Türkiyəyə maliyyə ytıran alman iş adamları imperiya ərazisində təkcə sırf kommersiya fəaliyyəti ilə deyil, çox şaxəli fəaliyyət sferalarına da malik idilər. Belə ki, bu maliyyəçilər Türkiyə ərazisində fəaliyyət göstərən Avropa və Amerikanın iri bank strukturları ilə əlaqəyə giri, Osmanlı imperiyasındakı müxtəlif dini konsessiyalarla münasibətlər qurur, Almaniya mallarının Türkiyəyə ixracına hərtərəfli dəstək verir, Almaniya-Levantiy xətti ilə əməkdaşlıq edir, Alman qəndinin Türkiyəyə və Fələstinə

ixracına yardım göstərirdilər [17, s.95-97]. Strasserin fikrincə məhz bu çox şaxəli fəaliyyəti sayəsində Alman Fələstin bankının kapit alı 1906-cı ildə 1 mln. markaya çatmışdı və bu bank elə həmin il Türkiyəyə Ən çox maliyyə yatıran banklardan biri Alman Şərq bankı ilə birgə əməkdaşlıq və bir-birini dəstəkləmək barədə müqavilə imzalamışdı [17, s.97-99].

Xatırlatmaq yerinə düşərdi ki, Şərq bankı fəaliyyətinə 10 mln. markalıq nominal kapital kütləsi ilə 1905-ci ildə başlamışdı, elə həmin il İstanbulda Saonikdə, İzmirdə və Hamburqda öz şöbələrini açmışdı. Sonralar bankın İstanbul və Hamburq agentlikləri Alman Milli bankının idarəçiliyinə keçmişdilər [17, s.100]. Strasser Türkiyədə maliyyə yatırımları edə niş adamlarının öz aralarındakı münasibət və münaqişələri də ətraflı təsvir və təhlil etmişdir. [17, s.102-117].

Alman tarixçisi Mülman 1929-cu ildə «Almaniya və Türkiyə 1913-1914-cü illər» adlı əsərində eynən Strosser kimi Alman banklarının fəaliyyətini, digər rəqib dövlətlərin bankları ilə apardığı mübarizəni ətraflı şərhş etmişdir. Müəllif Almaniyanın Türkiyəyə maliyyə-kredit ekspansiyasını tam dəstəkləyərək belə bir fikri təlqin etməyə çalışır ki, Almaniyanın Yaxın Şərq və Türkiyə siyasətinin əsasını bu ölkədə Almaniyanın iqtisadi maraqlarını qorumaq təşkil edir. Əgər Almaniyanın dəstəyi olmazsa Rusiya, İngiltərə və Fransa onu bölüşdürüb məhv edər. Deməli Almaniyanın maliyyə yatrımları təkcə Alman iqtisadi maraqlarını deyil, eləcə də Osmanlı imperiyasının bütövlüyünün qrantıdır [13, s.37]. Bu baxımdan Bülövün 1830-cu ildə işıq üzü görən «Xatirələr» adlı monoqrafik əsəri də böyük maraq doğurur. Əsərdə Almaniyanın XIX əsrin sonu – XX əsrin əvvəllərində yeritdiyi iri miqyaslı ekspansiya siyasəti çox geniş şəkildə işıqlandırılmışdı. Hələ 1900-cu ilin yazında reyxstaqın büdcə komissiyasında çıxış edərkən B.fon Bülövdən «dünya siyasəti» terminə aydınlıq gətirilməsi xahiş edilərkən o cavab vermişdir: «Dünya siyasəti dedikdə mən ilk öncə bizim sənayenin, ticarətin, gəmiçiliyin inkişafı ilə bağlı cari məsələlərin həyata keçirilməsin, işçi qüvvəsinin və intellektinin qarşısını ala bilmərik. Biz aqressiv və ekspansionist siyasət haqqında düşünmürük. Biz hadisələrin təbii inkişaf edən axarında Alman maraqlarının dünyanın hər bir ölkəsində qorunmasını istəyirik. Mən nə protestant, nə də ki, katolik siyasəti yeridirəm. Mən Alman siyasəti yeridir [1, s.415-416]. Türkiyəyə gəlincə isə: «Şərq çox rəngarəng və əsrazəngindir, öz zənginliyi, təkrarsızlığı, sultanın qeyri-məhdud idarəçilik sistemi, rəiyyəti üzərindəki hökmü ilə yaddaqalandır, təsirlidir»-deyə yazan müəllif [9, s.242] daha sonra Alman banklarının sərmayə yatırmalarına da çox geniş diqqət ayırmışdır. Müəllif təkcə dəmir yolunun çəkilişinə deyil, elektrik təhcizatı sahəsinə də alman iş adamlarının maliyyə yatrımı ayrılmasını, lakin Sultanın elektrik enerjisindən ehtiyyatlanması səbəbindən bui şin baş tutmamasını da təssüflə qeyd edir. Bülov yazır ki, hər cür xalq həyacanlarından daimi ehtiyyat edən sultan küçələrin işıqlandırılmasına icazə vermədi [1, s.251]. Bülöv öz xatirələrində yazır ki, sultan Türkiyə və müsəlman aləminə olan çılğınlığına da bir çox hallarda skeptik və soyuq yanaşır, prosesləri ləngitməyə cəhd edirdi. [9, s.251] Elə məhz bu səbəbdəndir ki, Yeorq fon Simens, bu dahi kommersant, Bağdad yolunun atası, öz layihələrini tam həyata keçirmək üçün enişli-yoxuşlu 16 illik çətin bir yol keçmişdir [1. s.253]. Bülöv yazır ki, Türkiyəyə maliyyə yatıran iş adamları bu qədim ölkənin tarixini, adət və ənənələrini əsl peşakarlıqla öyrənir, heç bir çətinlikdən çəkinmirdilər. Məsələn Türkiyədən Fərat çayı boyunca Hindistana dəmir yolu çəkmək üçün maliyyə yatıran Sesli Rods bu işə tarixi öyrənəndən sonra qol qoymuşdu [1, s.351]. Bülöv xatirələrində Almaniyanın əsas rəqibi İngiltərə ilə olan münasibətlərə də, onunla bir çox hallarda razılığa gəlmək xəttinin tərəfdarı olmasına da, Almaniyanın Türkiyəyə ayırdığı maliyyə iyatrımlarının siyasi deyil, sırf iqtisadi maraqlar daşıması məsələsinə də ciddi önəm vermişdir [1, s.572].

1938-ci ildə işıq üzü görən «Türkiyə ilə Süvyeş kanalında» adlı kitabında Almaniyanın Türkiyəyə əsasən hərbi sahədə maliyyə yatrımlarına geniş yer verən tarixçilərdən biri də Kress von Kressenşteyndir [12, s.32-47].

Almaniyanın İngiltərə ilə bir çox diplomatik danışıqlarında iştirak etmiş Külman 1948-ci ildə Heytelberqdə nəşr olunan «Ələ keçirmək» adlı elmi kitabında 1914-cü il 15 iyunda imzalanmış Mesopotamiyadakı neft yataqlarının birgə istismarına dair müqaviləyə istinad edərək bu hadisəni dünyanın bölüşdürülməsinə dair yeni bir mərhələ kimi qiymətlənldirir. Beləki Mesopotamiyadakı neft yataqlarının istisamrına dair aksiyaların 50%-i ingilis «Neşnl benk of Torki», 25%-i holland «Royyal datç Şell», 25%-i isə «Doyçe bank»a məxsus idi. İngilis maqnatı Deterdinq cəmiyyətin I sədri, «Doyçe bank»ın nümayəndəsi Qeorq fon Ştraus isə vitse sədr vəzifəsini tuturdular. Müəllif yazır ki, Almaniya ilə İngiltərə arasında belə razılaşmalar göstərirdi ki, Türkiyə və Yaxın Şərqə eksponsiyada aparıcı yeri maliyyə kapitalı tutur [11, s.366]. Halbuki, elə həmin məqamda müəllif qeyd edir ki, Almaniya öz müstəmləkə gələcəyini Türkiyədə deyil, əsasən Afrikada axtarmalıdır [11, s.367].

XX əsrin 50-ci illərində Alman tarixşünaslığında belə bir hal aydın duyulmağa başladı ki, Almaniyanın XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyəyə maliyyə yatırımları təkcə Almaniyanın siyasi-iqtisadi maraqlarına deyil, Türkiyənin özünün də daxili stabilliyini bir dövlət kimi saxlamsına müstəsna təsir göstərdi. H.Herz feldin [12, s27-30, 44-48], A.Ritalerin [16, s.34-37], V.Hubaçın [9, s.152] əsərlərində də belə tendensiya aydın sezilir. Lakin, Georq Halqartenin 2 cildlik «İmperializm 1914-ci ilə qədər» adlı çox sanballı, kifayət qədər geniş auditoriyası toplanmış monoqrafiyası bu baxımdan fərqli xüsusiyyətlər kəsb edir. Əsər ilk dəfə 1951-ci ildə Münxendə işıq üzü görsə də, sonralar 1963-cü ildə yenə də orada yenidən işlənmiş və əlavələr edilmiş şəkildə II dəfə nəşr edilmişdir. Georq Halqartenin Adı çəkilən kitabı 1961-ci ildə Moskvada rus dilinə tərcümə edilərək nəşr olunmuşdur. Müəllif bu əsərində əsas diqqəti Alman inhisarlarının Yaxın Şərqdə və Türkiyədəki siyasətinə yönəldir. Halqartendə məsələlərə iqtisadi aspeqdən yanaşma açıq şəkildə siyasi-hərbi yanaşmadan üstünlük təşkil edir. Müəllif yazır ki, Almaniyanın Türkiyəyə artan maraqları, maliyyə və iqtisadi eksponsiyası onun İngiltərə ilə, Rusiya ilə münasibətlərinə ciddi xələl gətirirdi [4, s.199-202, 211,226-228]. Müəllif yazır: «1901-ci ildə Almaniyanın Türkiyəyə ixracı 230 mln. marka təşkil etsə də rəqibi Fransadan bu sahədə geri qalırdı. Lakin məhz Fransa ilə əl-ələ verib Türkiyəni maliyyə ixracı bazarı kimi hər iki ölkə öz əlində bərk-bərk saxlamaq istəyirdilər [4, s.228-229]. Müəllif yazır: «Türkiyənin gücü ildk növbədə təkcə hərbiçilərin istəyindən və vaxtında Konstantinapola Dəclə və Fəratdan çevik hərbi alayların gətirilməsindən asılı idi» [4, s.230]. Elə ona görə də həm hərbi elita, həm də dövlət qurumları alman kapitalının Türkiyəyə yatrılmasında maliyyəçilərə dəstək verilməsində maraqlı idilər [4, s.230].

Müəllif Alman kapitalının Türkiyəyə ixracının beynəlxalq aləmdə yaratdığı zonasına, münasibətlər sisteminə də geniş yer ayırmışdır. [4, s.458-463].

Halqarten yazır ki, Almaniyanın Türkiyədə maliyyə cəhətdən möhkəmlənməsi Rusiyanın iqtisadi maraqlarını böyük təhlükə qarşısında qoyurdu. Belə ki, «Rusiya imperiyasının bütövlükdə mövcudluğu bu ölkənin Qara dənizin şimal sahillərindəki rayonlarından gətirilərək Bosfor və Dardanell boğazları vasitəsilə xaricə ixrac olunan taxıldan asılı idi. Deməli, Rusiyanın Türkiyədən sıxışdırılması onun «olum və ölüm» dilemması qarşısında qalması demək idi» [4, s.460]. Daha sonra müəllif yazır: «Lakin alman kapitalının Türkiyədə maraqları o qədər böyüyk idi ki, Almaniya heç ibir kompramis və mağlubiyyətlə barışa bilmirdi» [4, s.463].

Alman kapitalının Türkiyəyə ixracatı zəminində baş verən ictimai-siyasi proseslər Ratmanın «Kayzer Almaniyasının Yaxın şərq siyasəti-Berlin-Bağdad» [14, s.16] və Kump-Korfesin Bismarkın «Rusiyaya doğru» 1878-1891-ci illərdə Alman-rus ziddiyyətləri fonunda sosial -iqtisadi problemlər» adlı əsərlərində də Halqartenin əsərində rastlaşdığımız məqamlarla üzləşirik. [10, s.181-182, 184-185, 186-190].

Alman tarixçisi Q.Şöllqen özünün 1984-cü ildə nəşr etdirdiyi «İmperializm və nüfuz dairələri. Almaniya və İngiltərə 1871-1914-cü illərdə Yaxın Şərq məsələləri» adlı kitabında Almaniyanın türkiyəyə maliyyə yatırmaları məsələlərinə geniş yer ayırmışdır. Şöllqen yazır ki, kayzerin Türkiyə paytaxtına rəsmi səfəri fon der Qoltsun mövqeyini möhkəmlətməklə yanaşı Almaniyanın yaxın Şərqdə ticarət-maliyyə sferasını da genişləndirdi [18, s.4-]. Müəllif 1890-cı ildə Simensin təklifi ilə Sürixdə yaradılan, 50 mln. frank nominal kapitala və 13 mln. frank aksiyalara malik olan Şərq Dəmir yolları Bankının türkiyəyə böyük maliyyə yatrımlarına malik olduğunu, həmçinin Bağdad dəmir yollarının maliyyələşdirilməsində müstəsna rol oynadığını xüsusi qeyd etmişdir [18, s.48]. Müəllif Alman bankının Anadolu dəmir yollarının tikintisi üçün ayırdığı iri maliyyə yatrımlarının da böyük rolundan bəhs etmişdir [18, s.37]. Alman maliyyəçilərinin Türkiyədə geniş fəaliyyətinin Londonda böyük təşviş oyatdığını da faktlarla göstərmişdir [18, s.82]. müəllif almanların fəal maliyyə əməliyyatlarını Türkiyədə təşəbbüsü ələ almaq, ölkə rəhbərliyinə ciddi təsir göstərmək vasitəsi kimi qiymətləndirərək 1899-cu ilin dekabrında Alman bankının Türkiyəyə 200 min lirə istiqraz ayırmasını da xüsusi olaraq vurğulayır [18, s.125]. müəllif bütün əsər boyu belə bir fikri əsaslandırmağa cəhd edir ki, maliyyə ixrac edə niş adamları siyasi ziddiyyətləri yumuşaltmaq səylərini təbii olaraq əsirgəməmiş, dövlətlər arasıiqtisadi əməkdaşlığın inkişafına misilsiz töhvələr vermişlər. Məsələn Şöllqe Simensin İngiltərə ilə danışıqlarda maraqlı olduğunu və Bağdad dəmir yolunun tikintisinə ingilis kapitalını cəlb etmək cəhdlərini və bunun əksinə olaraq, ingilis maliyyəsinin dəmir yolunun tikintisinə yatrılmasının İngiltərənin strateji maraqlarına zidd olduğu üçün mümkünsüzlüyünü düşünən Marşalın fikirlərinə də öz əsərində geniş yer ayırmışdır [18, s.14-].

Ümumiyyətlə əsərdə Alman-ingilis rəqabəti diqqətlə izləndiyindən və İngiltərə həmin dövrdə Dünya kapital ixracına görə birinci yerdə durduğuna görə bu iki dövlətin Yaxın Şərqdə və Türkiyədə kapital ixracı sahəsindəki amansız mübarizəsi ilə nəticələnən qarşıdurmanın Ən vacib halqası kimi səciyyələndirir. Belə ki, Yaxın Şərqdə Alman ekspansiyasının qarşısını almaq üçün İngiltərədə müdafiə komitəsi yaradılmışdı. Komitənin 1908-ci ilin martında çağırılmış ekstern xarakterli iclasında Almaniyanın Türkiyəyə maliyyə yatrımlarını genişləndirmək cəhdlərini İngiltərənin dövlət maraqları üçün çox ciddi yatrımlarını genişləndirmək cəhdlərini İngiltərənin dövlət maraqları üçün çox ciddi təhlükə kimi qiymətləndirmiş və bunun qarşısını almaq üçü ciddi tədbirlərin qısa bir müddətdə, təxirə salınmasından işlənib hazırlanmasını tələb etmişdir [18, s.224-225]. Şöllqen kimi tarixçi Quçe də XIX əsrin sonu – XX əsrin əvvəllərində Almaniyanın Türkiyəyə maliyyə yatırımlarını alman-ingilis rəqabətinin təbii təcəssümü kimi qiymətləndirir və bunu Almaniyanın Yaxın Şərqdə iqtisadi hegomonluğunun təminatı kimi xarakterizə edir. Müəllif 1903-cü ildən 1913-cü ilə qədər Almaniyanın Türkiyənin qiymətli dövlət kağızlarına qoyduğu maliyyə yatrımlarının 118 mln. markadan 722 mln. markaya qədər yüksəldiyini qeyd edir. [3. s.145-149].

1911-ci ildə Türkiyəyə yatrılan xarici sərmayənin az qala 4/5-ü Fransanın payına düşürdü. Fransız kapitalının Türkiyədə yatrımı 2,5 mlrd. frank təşkil edirdisə, alman kapitalı 900 mln. frank idi. Türkiyəyə yatrılan maliyyənin çəkisinə görə Fransa Almaniya və İngiltərənin bu ölkəyə olan malliyyə yatrımlarından iki üstün idi. Sözsüz ki, bu Almaniyanı Qane etmirdi. Quçe XX əsrin əvvəllərindən 1913-cü ilə qədər olan dövrdə

Almaniyanın Türkiyədə yeritdiyi maliyyə siyasətini diqqətlə izləyərək artan bir dinamikanı konkret iqtisadi göstəricilərlə nəzə çatdırır. Belə ki, 1913-cü ildə 1904-cü illə müqayisədə Almaniyanın Türkiyəyə maliyyə yatrımı 400 mln. markadan 1,2 mlrd. markaya qədər artmışdır, yəni 200% kod.s.274.

Müəllif Almaniyanın xarici işlər Nazirliyinin 1913-cü ilin oktyabrında verdiyi məlumatlara əsasən Almaniyanın Türkiyə iqtisadiyyatının bütün sferalarına qoyduğu maliyyə yatrımının məbləğini, çəkisini və bölüşdürülməsini sxemlə göstərmişdir (min marka ilə). Sxemdən aydın olur ki,

Ticarət evlərinə – 23 756
Torpaq sektoruna – 39 249,5
Sənaye, kommersiya və kənd təsərrüfatı müəssisələrinə – 6500
Banklara – 13700
Dəmir yollarına – 368000
Mədənlərə – 3975
Sənaye müəssisələrinə – 4416
Sığorta cəmiyyətlərinə – 33.380
Məktəb və elm müəssisələrinə – 26969 marka vəsait qoymuşdur. Bütövlükdə isə bu məbləğ 519946 min marka təşkil etmişdir [3. s.275].

Quçenin tədqiqatlarından bəlli olur ki, bu vəsaitin 70,8%-ni (368 mln. marka) dəmir yollarına yatrılan pullar təşkil edir. Quçe bütövlükdə Almaniyanın Türkiyəyə maliyyə yatrımlarının əsas qayəsini burada Almaniyanın iqtisadi siyasi cəhətdən möhkəmləsində görür. [3. s.35-50]

Almaniyanın Türkiyəyə maliyyə yatrımları problemini XX əsr rus tarixçiləri də öz tədqiqatlarında geniş işıqlandırmışdılar. Belə ki, hələ 1924-cü ildə çap edilmiş Uferman və Hüqlinin «Ümumi elektrik kompaniyası» adlı kitabında alman iş adamlarının Türkiyədə elektrik stansiyalarının tikintisinə ayırdıqları maliyyə rolu, həmin bankın Osmanlı imperiyasının paytaxtını işıqlandırmaq üçün təsis etdiyi Konstantinapol Konsorsiomu və fəaliyyəti kitabın əsas qayəsini təşkil edir. Müəlliflər Adı çəkilən kitabda Alman bankının Osmanlı imperiya bankı, Fransanın məşhur «Soste jeneral», İsveçirənin «Svayçerişe kredi tanştal» bankları, həmçinin Simens – Şukkert zavodu və Konstantinapol tranvay cəmiyyəti ilə müştərək fəaliyyətinə də çox geniş yer ayırmışdır [42. s.50-64]

Rus tarixçisi lakin –Antanov (sonralar sadəcə Lukin. A.M.) özünün 925-ci ildə işıq üzü görmüş «Almaniyanın Ən yeni tarixinə dair oçerklər» adlı kitabında Alman kapitalının fəaliyyətinə də böyük diqqət ayırmış, lakin yenə də belə bir fikrin üzərində tapa bilməzdilər [25. s.150-153]. Müəllif alman kapitalının Türkiyə sənayesinin digər sferalarına müdaxiləsini də sonrakı tədqiqatlarında diqqətlə öyrənmişdir. Belə ki, Bağdad dəmir yolunun çəkilişinə dair razılıq əldə edildikdən sonra alman kapitalı 1904-cü ildə Bağdad və Mosulda neft-kəşfiyyat işlərinə dair Konsessiyalara sahib olmuşdu [26. s.172].

Almaniyanın Türkiyədə maliyyə cəhətdən möhkəmlənməsi Rusiyanı sözsüz ki, ciddi narahat edirdi. Artıq yuxarıda qeyd olunduğu kimi Rusiya öz gəmilərinin Qara dəniz boğazlarından sərbəst üzməsində maraqlı idi. Almanların dəmir yollarının tikintisinə ayırdıqları maliyyə vəsaiti, xüsusən Bosfor boğazının şərq sahilində Heydərpaşa limanını ələ keçirmələri Rusiyanı vadar edirdi ki, hər vasitə ilə alman kapitalının Türkiyəyə ixracına Mane olsun. Bu fikirlər XX əsrin 30-cu illərində Rusiya tarixşünaslığı üçün çox xarakterikdir. M.N.Pokrovskinin 1934-cü ildə nəşr olunan «İmperialist müharibəsi» adlı kitabı bu baxımdan ən parlaq nümunədir [32. s.16-17; 32-36; 69-70; 130-134; 222-223]. Eyni fikirləri Xvostov haqqında da demək olar[41, s.19]. A.D.Noviçev

1935-ci ildə nəşr olunan «I Dünya müharibəsi ərəfəsində Türkiyə iqtisadiyyatı» adlı əsərində yazır ki, nəinki alman, eləcə də digər ölkələr türkiyə sənayesinin müxtəlif sahələrinə kapital qoyarkən faydalı qazıntı yataqlarını vəhşicəsinə istismar edir, çox vaxt yeni texnika tətbiq etməkdən yer səthinə yaxın layları istismar edib, ekstensiv üsulla, əsasən ucuz işçi qüvvəsi ilə yüksək qazanc götürməyə can atırdılar [27. s.245]. Müəllif yazır ki, Alman kapitalı Ən çox dəmir yolu sektoruna cəlb olunduğu üçün fabrik-zavod sənayesi Türkiyədə çox zəif inkişaf etmişdi [27. s.48]. müəllif alman iş adamlarının ölkənin hərbi ehtiyaclarını ödəmək üçün ayırdığı iri maliyyə məsaitlərini də nəzərdən qaçırmamışdır [27. s.57-60, 62-63]. Məhz bu səbəbdəndir ki, müəllif belə bir qənaətə gəlir ki, hərb sənayesinin və daxili bazarın, xırda yerli istehsalın canlandırılması ilk növbədə Türkiyədə iqtisadi istehsalın nəzərə çinkişafına səbəb oldu. Müəllif bu qənaətini xüsusi cədvəllə də təsdiq etməyə cəhd göstərir [27. s.67]. Müəllif yazır ki, əgər Türkiyədə hasilat sənayesində kapital qoyuluşunda blirincilik Fransaya, hərbi gçmilçrin istehsalı və təmirində birincilik İngiltərəyə məxsus idisə [27. s.45] dəmir yollarının çəkilişində isə sözsüz ki, Almaniyaya məxsus idi. Burada da müəllif fikrini iqtisadi cədvəllərlə izah edir [27. s.69-71, 73-75]. Müəllifin 137-ci ildə nəşr olunmuş «Dünya müharibəsinə qədərki, Türkiyə iqtisadiyyatına dair oçerklər» adlı kitabında da bəhs etdiyimiz məsələ geniş aspektdə işıqlandırılıb. Müəllif yazır ki, Türkiyəyə kapital ixracında önəmli yer Fransa və İngiltərəyə məxsus idi. Mühari bəyə qədər Türkiyəyə yatrılan bütün xarici kapitalın 62,9%-ni Fransaya məxsus idi [28. s.128]. Fransadan sonra ən çox kapital ixrac edən İngiltərə sənaye, xarici ticarət və sığorta cəmiyyətləri və banklarda böyük nüfuza malik idi, lakin: «XIX yüzülliyin sonralarından başlayaraq Almaniyanın Osmanlı imperiyasında iqtisadi-siyasi nüfuza artmağa başladı, bununla da bu ölkənin Türkiyə iqtisadiyyatına kapital qoyuluşu da artmağa başladı» [28. s.128]. Almaniya daha çox Türkiyənin dəmir yolu çəkilişinə kapital qoyurdu. Belə ki, türk dəmir yollarının çəkilişinə qoyulan bütün xarici kapitalın 41,4%-i Almaniyaya məxsus idi [28. s.128].

A.Noviçenin fikrincə:»Xarici kapital qoyuluşu qabaqcıl texnika və proqresin Türkiyədə daşıyıcısı deyildi. Çünki, maliyyə kütləsi ölkə sənayesinə deyil, sırf dövlətlərin maraqlarına xidmət edirdi 28. s.129].

Müəllif yazır ki, ölkəyə xarici kapital axınının əsas səbəblərindən biri real pul kütləsinin çatışmaması, istehsalınçox aşağı səviyyəsi, sultanın hər il büdcə imkanlarından 10 dəfədən çox pul israf etməsi idi [28. s.187]. Belə bir vəziyyət təbii ki, dövlət büdcə kəsirinin artmasına səbəb olurdu. Hələ 1897-98-ci illərdə büdcə kəsiri 868 min lirə idi bu da büdcənin gəlirinin 46 %-nə bərabər idi. 1911/12-ci illərdə isə kəsir büdcə gəlirinin 32%-nə bərabər idi[28. s.188]. müəllif iqtisadi rəqəmlərlə və faktlarla Türkiyəyə xarici kapitalın onu bankrot etdiyini, sübut etməyə cəhd etmişdir [28. s.195-204]. Xarici borcların, xüsusilə müharibə illərində bu borcların artması onu Almaniyadan daha çox asılı etdi [28. s.204]. Eyni fikrlərə H.Həbidullinin «Gənctürklər inqilabı» kitabında da rastlaşırıq. 1936-cı ildə nəşr olunan bu kitabda müəllif XIX əsrin sonlarında Almaniyanın Türkiyəyə maliyyə ekspansiyasının sürətli artımından bəhs edərək yazırdı: «Gənc yırtıcı dövlət olan Almaniya imperializm səhnəsinə gec çıxsa da, müstəmləkələrə malik olmasa da bu itkilərin yerini tez doldurmaq fikrindən daşınmırdı. Ona görə də nəzərlərini Kiçik Asiyaya – Türkiyəyə dikdi. Lakin kapital ixracında o, Fransaya uduzurdu. Belə ki, Fransanın maliyyə yatrımı Türkiyədə 3,5 mlrd. franka çatırdı ki, bu Almaniyanın bu ölkəyə maliyyə yatrımından 4,5 dəfə çox idi» [22. s.85-86]. Müəllif oradaca, Fransa, İngiltərə və Almaniyanın Türkiyəyə maliyyə yatrımlarını dəmir yolu və liman tikilişlərinə dair müqavyisəli təsvirini əks etdirən cədvəllər verib. Bu jdvəllərin də müqayisəli təhlilləri XIX əsrin sonlarında Almaniyanın Türkiyəyə maliyyə yatrımlarını artırmaqda israrlı olduğunu göstərir. [22. s.86]. Müəllif yazır ki, Almaniyanın belə iri miqyaslı maliy-

yə siyasəti : «İngiltərənin mövqelərini sarsıtmaq, Almaniyanı nəinki Türkiyədə, bütün Şərqdə hegomonluğunu təmin etməkdən ibarət idi [22. s.88].

Rusiyada Böyük vətən müharibəsi illərindən sonra bəhs etdiyimiz məsələyə adir bir sıra tədqiqat işləri üzə çıxdı. Bunların içərsində A.Yerusəlimskinin 19511-ci ildə nəşr olunan məşhur monoqrafiyası xüsusi olaraq nəzərə çarpır [23]. Müəllif Türkiyədə dəmir yollarının tikilməsində maraqlı olan «Alman bankı»nın, almaniyalı iş adamların: «Maliyyə kapitalı siyasətini fəal həyata keçirmək üçün hətta digər dövlətlərin maraqlarını da ayaqlar altına qoymasını» xüsusi olaraq qeyd etmiş, konkret misallarla fikrini əsaslandırmışdır [23. s.255-256]. Almaniyanın digər dövlətlərlə İngiltərəyə və Rusiyaya qarşı Almaniyaının diplomatik gedişlərinin də çox maraqlı izahı nəzəri cəlb edir [23. s.258-264].

Kitabın Bağdad dəmir yolunun çəkilişinə həsr edilən bölməsində Almaniyanın maliyyə siyasəti daha aydın və dolğun şəkildə əks etdirilmişdir [23. s.489-494; 500-505].

A.Erusəlimski digər monoqrafiyasında da Almaniyanın Türkiyədə yeritdiyi maliyyə siyasətinə geniş yer ayırmış və bu zaman meydana gələn zidiyyyətlərin, beynəlxalq aləmdə yaşanan gərgin durumun şərhini analiz etməyə cəhd göstərmişdir. Bu əsərlər müəllifin yaşadığı ictimai-siyasi durumun, ideoloji təpkinin tələblərinə məruz qalsa da, tarixçinin istifadə etdiyi son dərəcə geniş və rəngarəng mənbələr, Almaniyada toplanan arxiv sənədlərindən istifadə onların elmi dəyərini fikrimcə azaltmır [24. s.25-27; 31-33; 49-57; 77-79; 132-137; 150-152].

Təxminən eyni fikirləri E.Tarle haqqında da demək olar. Məşhur tarixçinin 12 cildlik "Əsərləri"nin V cildi XIX əsrin sonu XX əsrin əvvəllərində avropa dövlətlərinin müstəmləkələr uğrunda amansız mübarizəsini və mübarizənin məntiqi sonluğu kimi dünya müharibəsinə gətirib çıxarması prosesini kifayət qədər aydın və geniş əks etdirir. Məhz bu cilddə alman-ingilis rəqabəti kifayət qədər açıq sezilir:"Az qala hər gün yeni-yeni bazarlar əldə edən İngiltərənin bazarlarını gün bə gün əlindən alan Almaniya bu dövlətin kapital ixracını da məhdudlaşdırmağa, bu sahədə də təşəbbüsü ələ almağa başladı" [27.s.95]. Artıq Almaniyanı belə bir hal ciddi narahat edirdi:"Müstəmləkələrində 32 milyon alman yaşayan Fransa hər il 74 milyon frank, müstəmləkələrində 375 milyon insan yaşayan İngiltərə hər il 62 milyon frank maliyyə sərf edirsə, nə üçün Almaniya bu prosesdən geri qalmalı idi"[37. s.15-151].

Müəllif Almaniyanın Türkiyəyə iqtisadi-siyasi ekspansiyasının səbəblərini də izah etməyə cəhd göstərmiş və bu zaman kapital ixracını da ön plana çəkmişdir [37. s.134-135].

Tarixçi K.Petryayev də XIX əsrin sonu XX əsrin əvvəllərində Almaniyanın Türkiyəyə maliyyə yatrımlarını bu ölkədə möhkəmlənmək rəqiblərini ucuz və keyfiyyətli "Made in Germani" malları və böyük pul kütləsi iloə sıxışdırmaq cəhdi kimi qiymətləndirmişdir [29. s.107, 117-119]. Digər tədqiqat işlərində isə müəllif alman və sovet dövrü rus tarixçilərinin əsərlərini tarixşünaslıq baxımından tədqiq edərək Almaniyanın Türkiyə siyasətini araşdırmış və maliyyə yatırımı məsələlərini ön plana çəkmişdir [30. s.18-27; 34] [31. s.6-7; 16-19].

Almaniyanın Türkiyədə yeritdiyi maliyyə ekspansiyası F.Rotşteyinin də tarixi araşdırmalarında özünəməxsus bir tərzdə işıqlandırılmışdır [33. s.179-200]. Müəllif Alman imperializminin son dərəcə aqressiv xarakter daşıdığını, imperiyanın aparıcı şəxslərinin dili ilə aydın verə bilmişdir. Alman rəhbərliyi düşünürdü ki, yalnız Emsadan Dunaya qədər uzanan Almaniya Avropada sülhü oruya bilər [33. s.221]. Almanlar bütün dünya xalqları üzərində hakimdirlər [33. s.222]. Ruslara gəlincə isə onlar barbardırlar, fransızları Avropalıların çinliləri adlandıran Bismark, italiyanları cəmdəyə qo-

nan qarğa və ya çaqqal, ingilisləri isə dükançı adlandırırdı. [33. s.223]. Deməli belə "aşağı növ xalqlar" Almaniyanın Türkiyədə maliyyə yatrımlarına və ümumən heç bir siyasətinə mane ola bilməzdilər. Həqiqətən də Almanlar Türkiyədən dəmir yollarının konsessiyasını alarkən və bu sahəyə maliyyə ayırarkən ingilislər buna etiraz etmədilər. Çünki, ingilislər Türkiyə ilə ticarətdə birinciliyi öz əllərində saxladıqlarına görə Almaniyanın türkiyədə artan iqtisadi nüfuzuna təhlükə kimi baxmırdılar [34. s.228-230]. Potşteynlə eyni fikri artıq əsəri haqqında Bağdad dəmir yollarından danışarkən xeyli söhbət açdığımız Q.Bondarevski də bölüşür [21. s.64-65]. Ümumiyyətlə, Q.Bondarevski öz əsərində təbii ki, Alman bankirlərinin dəmir yolu sektoruna maliyyə yatırımlarına böyük əhəmiyyət vermişdir [21. s.63-64; 142-143; 93, 226-227].

A.S.Silin də öz yaradıcılığında Almaniyanın Türkiyədə XIX əsrin sonu XX əsrin əvvəllərində yeritdiyi maliyyə siyasətini geniş işıqlandırmışdır: "XIX əsrin 70-ci illərinin ortalarından Alman kansleri Osmanlı imperiyasına böyük əhəmiyyət verməyə başladı" [35. s.41]. II Vilhelim Türkiyəyə məşhur səfərindən sonra bu maraq dairəsinin getdikcə genişlənməsi bir çox müstəvilərdə, o cümlədən maliyyə-ticarət sahələrində də tapdı [35. s.117-118; 121-125; 137-139]. Müəllif "Alman bankı"nın dəmir yolunun tikintisinə sərmayə qoymasını, bütövlükdə "Doyçe bankın" fəaliyyətini geniş işıqlandırıb [35. s.133-134]. Müəllif yazır ki, öz dəmir yolları müəssisələrinin tikintisini Türkiyədə maliyyələşdirməkçün Simens xüsusi olaraq "Şərq dəmir yolları bank"ını təsis etmişdi [35. s.189-190].

A.S.Silin 1976-cı ildə nəşr olunan "Birinci Dünya müharibəsi ərəfəsində Alman imperializminin Yaxın Şərqə ekspedisiyası (1908-1914)" adlı əsərində də müəllif bizi maraqlandıran məsələ ilə bağlı xeyli araşdırmalar aparmışdır. Bu kitabın ən maraqlı xüsusiyyətlərindən biri müəllifin 1971-1914-cü illərdə Almaniyanın xarici siyasətini əks etdirən və 1922-1927-ci illərdə Berlində 40 cilddə nəşr olunan diplomatik sənədlər toplusundan və alman tarixçilərinin əsərlərindən həddən ziyadə çox istifadə etməsidir. Müəllif I Dünya müharibəsi ərəfəsində Almanya hərbi və iqtisadi baxımdan Türkiyəyə böyük maliyyə dəstəyi göstərməsini İngiltərə, Fransa və Rusiyanı çox ciddi narahat etdiklərini məhz adı çəkilən alman sənədləri ilə isbat etməyə cəhd göstərmişdir [36. s. 15-23; 25-37; 40-47; 52-64]. Müəllif yazır ki, Türkiyə hökuməti özü də panislamist təşkilatların fəaliyyətini, xüsusən də Qafqazda təbliğini ciddi surətdə dəstəkləyir və bu işə xeyli maliyyə vəsaiti sərf edirdi. Bu məsələdə də Türkiyəyə ən böyük dəstək verən pangermançı Alman hökumət dairələri idi [36. s.66-67]. Bu hadisəni müəllif Rusiya xarici siyasətinə dair arxiv sənədinin dili ilə belə ifadə etmişdir:"Türkiyənin simasında indi bir ən qorxulu və barışmaz düşmənimizi görürük, indi sürətlə silahlanan və Asiyadakı mövqelərimizə ciddi təhlükə yaradan bu dövlətdən hər an hücum gözləyə bilərik" [36. s.68].

Müəllif yazır 1911-ci ilin sonlarında başlayan Tripolitan müharibəsi alman-türk münasibətlərini xeyli mürəkkəbləşdirdi. Bu Almaniyanın Şərq siyasətinə ağır zərbə idi. Belə ki, Türkiyənin parçalanması gələcəkdə bu dövlətdən İngiltərə və Rusiyaya qarşı istifadə etməyi də mümkünsüz edərdi [36. s.70-71]. Müəllif yazır ki, Almaniyanın Türkiyədəki maliyyə siyasəti, iri hərbi sifarişlər qəbul etməsi təkcə Antanta dövlətlərini deyil, hətta Üçlər üzvi olan Avstriyanı da narahat edirdi. Məsələn, 1899-cu ildə Türk hökumətinin Lövenin hərbi sursat zavodları ilə bağlı müqaviləyə 100 mln. patron gətirilməli idi. Patronlar çıxdaş olduğuna görə hökumət müqaviləni pozmaq istədikdə yaranmış vəziyyətdən Avstriya faydalanmağa çalışmış və öz maliyyə imkanlarını Türkiyəyə

təqdim etmişdi [36. s.140]. daha modern hərbi avadanlığa yiyələnmək cəhdləri Türkiyənin ciblərini tamam boşaltmışdı [36. s.142].

Artilleriya kralı "sayılan krupp ölkənin ağır maliyyə vəziyyətindən istifadə etməklə Türkiyəyə 6%-lik borcla maliyyə yatrımları noymuşdur. Təkcə zirehli texnikanın təkmilləşməsi üçün Krupp 7 mln. fr. Pul vəsaiti ayırmışdı [36. s.143].

Türkiyənin iri miqyaslı hərbi sifarişləri müəllifin fikrincə Almaniyanın bu ölkəyə yatırmaq imkanlarını artırmağa çox gözəl şərait yaratdı.

Almaniyanın Türkiyəyə maliyyə yatrımlarını geniş şəkildə tədqiq edən tarixçilərindən biri də B.M.Tupolevdir. Müəllifin 1970-ci ildə işıq üzü görən "XIX əsrin sonu XX əsrin əvvəllərində Alman imperializminin Cənub-Şərqi Avropaya Ekspedisiyası" adlı əsəri 3 böyük fəsildən ibarətdir. kitabın 3-cü fəslin birinci hissəsi "Alman kapitalının Osmanlı imperiyasına eksponsiyası" adlanır [38. s.219-246].

Adı çəkilən kitabında müəllif yazır ki, "Alman bankı" Türkiyədəki bütün maliyyə əməliyyatlarında maraqlı idi və Türkiyənin ağır maliyyə vəziyyətindən dərhal faydalanmağı bacarırdı [38. s.224-225]. Lakin Alman kapitalının Osmanlı imperiyasında mövqeyi əsaslı şəkildə XIX əsrin 80-ci illərində möhkəmləndi [38. s.226]. Müəllif Türkiyə hökumətinin hərbi sifarişləri, dəmir yollarının çəkilişi ilə bağlı Alman kapitalının misilsiz şəkildə, böyük bir sıçrayışla ölkə iqtisadiyyatına daxil olduğunu faktlarla izləyə bilmişdir [38. s.227-247]. Nəhayət, B.M.Tupolev Alman kapitalının digər sahələrə də, məsələn, Urfada xalça fabrikinin təşkilinə, 1905-ci ildə alman-türk "pambıq-parça cəmiyyəti"nin təsis olunmasına, Qaraviran gölünün qurudulmasına böyük diqqət yetirmişdir [38. s.245-246]. Məhz belə çoxşaxəli və geniş fəaliyyəin məntiqi nəticəsi idi ki, artıq 1914-cü ildə Türkiyəyə yatrılan xarici maliyyə vəsaitlərinin çəkisinə görə Almaniya 20%-lə İngiltərəni ötərək, Fransadan sonra ikinci yerə çıxmışdır [38. s.246-247].

1987-ci ildə alman və rus tarixçilərinin tədqiqat işlərindən ibarət "XX əsrin əvvəllərində Alman imperializminin tarixinə dair tədqiqatlar" adlı toplu Moskvada dərc edildi Bu topluda B.M.Tupolevin "XIX əsrin sonu XX əsrin əvvəllərində Bağdad dəmir yolu və alman imperializminin eksponsiyası" adlı məqaləsi dərc edildi. Adı çəkilən məqalədə əsas diqqət Bağdad dəmir yoluna yönəlsə də müəllif sözsüz ki, tikintisi iri maliyyə vəsaitləri tələb edən bu işdə Alman banklarının, maliyyəçilərinin çox fəal mübarizəsini də diqqətdən kənar qoymamışdır [39. s.168-201].

B.M.Tupolevin diqqəti cəlb edən maraqlı tədqiqat işindən biri də "Alman imperializmi" "sarı günəş altında" mübarizədə" adlı əsəridir. 1991-ci ildə nəşr olunan, üç kifayət qədər böyük fəsildən ibarət olan bu kitabda müəllif həddən artıq faktoloji materiallar toplamış, alman və rus tarixçilərinin çox saylı əsərlərindən fikrimcə məharətlə faydalanmışdır. Kitabın I fəslində "Türkiyədə Alman maliyyə yatrımları. Alman kreditinin ekspansiyası" adlı bölmədə xüsusi maraq doğurur [40. s.96-108]. Müəllif yazır ki, Almaniyanın Yaxın Şərqə ekpansiyasında ən ciddi faktorlardan biri Türkiyədə fəaliyyət göstərən ilk Alman bankı olan Fələstin bankı idi. 450 payçı arasında bölünməklə aksiya kapital 450 min marka olan bu bank öz qarşısında ölkədə fəal bank fəaliyyətini və Almaniya ilə Türkiyə arasında çoxşaxəli ticarət əlaqəlri qurmaq sahəsinə yönəltmişdi [40. s.102]. Lakin, müəllif öz oxucusuna ilk öncə belə bir fikri aşılayır ki, Türkiyəyə ən çox maliyyə yatrımları edən və maliyyə dairələrində "Sultanların bankiri" adlandırılan Alman idi [40. s.97].

Müəllif yazur: "Türkiyədə Alman bankının mövqeləri o qədər güclü idi ki, digər alman bankları onunla ciddi rəqabət apara bilmirdilər" [40. s.97].

Müəllif tərtib eğdiyi xüsusi cədvəldə Alman maliyyəsinin Türkiyə iqtisadiyyatının ayrı-ayrı sahələrinə hansı qaydada və miqdarda yatırılmasını da göstərmişdir [40. s.99].

Beləliklə, XIX əsrin sonu XX əsrin əvvəllərində Almaniyanın Türkiyəyə maliyyə yatırımları mövzusu istər alman, istərsə də rus tarixçiləri tərəfindən kifayət qədər geniş işlənməsinin şahidi olduq. Bu da təsadüfi deyildir. Çünki, dövlətlər arası iqtisadi-siyasi və ya siyasi-iqtisadi münasibətlər sistemi belə demək mümkünsə elə bu münasibətlərin özünün və özülünün də ən ümumiləşmiş ekvivalenti olan maliyyə siyasətindən asılıdır.

## *ƏDƏBİYYAT*

1.Bülow B. «Denkwürdiqkeiten» Bd I. Berlin 1930.
2.Grothe H. «Deuschland, die Türkei und der islam» Leipziq 1914.
3.Gutsche W. «Monopole Staat und Expansion vor 1914» Berlin 1986.
4.Hallqarten G. «İmperialismus vor 1914» Bd 1-2 München 1958.
5.Helfferich K. «Die deutsche Türkenpolitik» Berlin 1921.
6.Helffirich K. «Georq von Simens. Ein Lebensbild aus Deutschland Grosser zeit» Berlin 1923.
7.Herzfeld H. «Die moderne Welt 1781945» Braunschweiq 1952. Bd 2.
8.Hoffman W «Deutsche Banken in der Turkei» Weltwirtscaftliches Archiv Cena 1915.
9.Hubatsch W. «Der Admiralstab und die obersten Marienbehörenden in7 Deutschland 1848-1945». Frankfurt Main 1958.
10.Kump-Korfes. «Bismarks –«Dranq nach Russland» Zum Problem der sozial-ökonomischen Hinterqründe der russisch-deutschen Entfrembunq im zeitraum von 187 bis 1891». Berlin 1968.
11.Kühlmann R. «Erinnerunqen» Heidelberq 1948.
12.Kress von Kressenstein «Mit den Türken zum Suezkanal» Berlin 1938.
13.Mühlmann C. «Deutschland und die Türkei 1913-1914». Berlin 1929.
14.Rathmann L. «BerlinBagdad. Die imperialistische Nahosrolitik des kaiserlichen Deutschland». Berlin 1962.
15.Riesser C. «Die deutschen Grossbanken und ihre Kanzentration im Zusammenbahnq mit der Entwicklunq der Gesamtwirtschaft in Deutschland» Cena 1912.
16.Rittaler A. «Kaiser Wilhelm. Herrscher in einer Zeitwende» Köln 1958.
17.Strasser K. «Die deutschen Banken im Ausland, Entwicklunqsqeschichte und wirtschaftliche Bedeutunq». München 1924.
18.Schöllqen G. «İmperialismus und Gleichqewicht. Deutschland, Enqland und die orientalisch Fraqe 1871-1914» münchen 1984.
19.Voiqt F. «Verkehr» Bd 2. Hz. Die Entwicklunq des Verkehrssystems. Berlin 1965.
20.Wiedenfeld K. «Die deutsch-türkische Wirtschaftsbeziehunqen und ihre Entwicklunq-mölichkeiten» München – Leipziq 1915.
21.Бондаревский Г.Л. «Багдадская железная дорога и проникновение германского империализма на Ближний Восток (1888-1903). Ташкент 1955.
22.Габидуллин Х.З. «Младотурецкая революция» М., 1936.
23.Ерусалимский А.С. «Внешная политика и дипломатия Германского империализма в конце XX века» М., 1951.
24.Ерусалимский А.С. «Германский империализм: история и современность» М., 1964.
25.Лукин-Анионов Н.М. «Очерки по новейшей истории Германии 1890-1914 гг.» М-Л., 1925.
26.Лукин Н.М. «Избранные труды» Т III М., 1963.
27.Новичев А.Д. «Экономика Турции в период мировой войны» М-Л., 1935.
28.Новичев А.Д. «Очерки экономики Турции до мировой войны». М-Л., 1937.
29.Петряев К.Д. «Курс лекций по истории Франции, Германии, Англии, Ирландии и США 1871-1914». Киев 1958.

30.Петряев К.Д. «Краикое введение к историографии и библиографии истории Германии, Франции, Англии и США 1871-1914 гг.» Одесса 1964.
31.Петряев К.Д. Фальсификация историками ФРГ истории Германии 1871-1914 гг.» Одесса 196-
32.Покровский М.Н. «Империалистическая война» М., 1934.
33.Ротштейн Ф.А. «Из истории прусско-германской империи» М-Л., 1948.
34.Ротштейн Ф.А. «Международные отнешения в конце XIX века». М-Л., 1960.
35.Силин А.С. «Экспансия Германии на Ближнем Востоке в конце XIX века». М., 1971.
36.Силин А.С. «Экспансия Германского империализма на Ближнем Востоке накнуне первой мировой войны 1908-1914» М., 1976.
37.Тарле Е.М. «Сочинения в двенадцати томах» В т.М., 1958.
38.Туполев Б.М. «Экспансия Германского империализма в Юго-Восточной Европе в конце XIX – начале XX в.» М., 1970.
39.Туполев Б.М. «Багдадская железная дорога и экпансия Германского империализма в конце XIX – начале XX в.» исследования по истории Германского империализма начала XX века. сб. статей М.1987.
40.Туполев Б.М. «Германский империализм в Борьбе за «Место под солнцем» М., 1993.
41.Хвостов В.М. Предисловие – Бюлов Б. Воспоминания. М-Л., 1935.
42.Уферман П. Хюлгин К «Всеобшая компания электричества» М-Пг. 1924.

**АЙДЫН МАМЕДОВ**
*Диссертант Бакинского Государственного Университета*

## ГЕРМАНСКИЕ КАПИТАЛОВЛОЖЕНИЯ В ТУРЦИИ В КОНЦЕ XIX – В НАЧАЛЕ XX ВЕКА В НАМЕЦКО – РУССКО ИСТОРИОГРАФИИ.

В условиях экономической отсталости Османской империи, постовленной под международный финансовый контроль, господиство иностранного капитала в кредимтной системе страны оказывало крайне отрицательное Турции находились в руках французского и английского капиталов.

Германский капитал пользовадлся известным влиянимен в находившемся под французским контролем Имперском Оттоманском (Османском) банке, по существу выполнявшем функциитуреукого государственного банка, хотя французский капитал являлсл основным кредитором Османской империи, германские банки принимали весьма деятельное и все возраставшее участие в финансированни Турции в конце XIX, начале XX века.

Немецкий банк играл в Турции столь значительную роль, что в финансовых кругах его называли не иначе как «банкиром султанов». В конце XIX, начале XX века ни одно вожное решение тов, которые имели право направлять свои предположения непосрественно в султанский дворец. Все эти проблемы были освящены в работах таких немецких авторах как Риссера, А.Гроте, В.Хоффмана, К.Виденфельда, К.Хельфериха, К.Штрассера, К.Мюльмана, Б.Бюлова, Р.Кюльмана, А.Риталера, Й.Хольгартена и др. которые доказывали как накануне войны по сумме капиталовложений в железнодорожное строительство Турецкой империи Германийя занимала первое место (67.5%), оставив далеко позади себя другие страны, или как немецкий капитал предпринял папытку завадеть частью угольных копий, или как немецкий капитал проник в сельское хозяйство.

Все вышесказанные проблемы были освещены также русскими историками: Лукин-Антоновым М.Н., М.Н.Покровским, В.М.Хвостовым, А.Д.Новичевым, Х.З.Габидуллиным, А.С. Ерусалимским, Е.В.Тарле, К.Д.Петряевым, Ф.А.Ротштейном, Г.Л.Бондаревским, А.С.Силином, Б.М.Туполевым и др.

AYDIN MAMEDOV
*Postqraduate of Baku State University*

## GERMAN CAPİTAL İNVESTMENT İN TURKEY AT THE END OF XIX CENTURY AND AT THE BEGNNİNG OF THE XX CENTURY İN GERMAN -RUSSİAN HİSTORYCRAPHY.

İn the economically lagged condition ottman Empire was under the internationol financial control. The hegomony of foreign capital in the countrys credit system infmenced badly an it economy.

Bigger bonks in Turkey were in the hands of French And Engilish capital. German capital had a grekat authority Over ottoman Emprie Bank in Turkey which was under the control of France. This bank essentially fulfilled Turkish State Banks duties. Although the French capital was the main ottoman Empires creditor German banks cook a more active, accelerated part in financing Turkey at the end of the XIX century and at the beginning of XX century.

German bank assumed such great iportance in Turkey that in the financal spheres it was cvlled as «Soltans bank». At the end XIX century and at the beginning of the XX century neither iportant decision was made withat German financers rekommendation. German financers had rights to send their conception straight to the Soltans palace.

All these problems were elucidated in such German authors works as Risser A.Grote, V.Hoffman, K.Vudenfeld, K.Shtrasser, K.Mulman, B.Büulov, P.Kutman and so on. They proved that on the Eve of war Germany took ihe ist place (67, 5%) for the amount of German capital investing in Turkish Empire Railway Building. German left behinc the other countries, so Ge6rmany undertook an attempt to approprated trough the agriculture.

All these above mentioned problems were elucidated by the Russian historians, too: by Lukin-antonov N.M., M.N.Pokrorsky, V.M. Khovstov, A.D.Novichev, K.Z.Gabudillin, A.S.Yerusalimsky, E.V.Tarle, K.D.Petryayev, F.A.Rolshteyn, G.H.Bonqdarevsky, A.S.Sylin, B.M. Tupolov and so on.

***Rəyçilər: t.e.d.A.C.İsgəndərov, t.e.d.R.C.Süleymanov.***

***BDU-nun Tarix fakültəsi Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının 20 fevral 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №06).***